# Türkiyə Milli Kəşfiyyat Təşkilatı 99 yaşındadır

**Ölkəmizin və millətimizin təhlükəsizliyi və əmin-amanlığı üçün gecə-gündüz çalışan və "Vətən söhbət mövzusu olduqda, bütün dünya bizim üçün vətən cəbhəsidir" deyən Təşkilatımız yüzillərlə formalaşmış dövlət ağlı və sivilizasiya yaddaşı ilə fəaliyyətini davam etdirir, dövrün tələbləri və ehtiyaclarına uyğun olaraq özünü daim yeniləyir.**



*Türkiyə Milli Kəşfiyyat Təşkilatının (MKT) rəhbəri İbrahim Kalın "Milli Kəşfiyyat Təşkilatı 99 yaşındadır - Türkiyə Əsrində Daha Təhlükəsiz və Daha Güclü Türkiyə" başlıqlı yazısında Təşkilatın gördüyü işləri və hədəflərini "Anadolu Agentliyi" üçün qələmə alıb.*

*(əvvəli ötən sayımızda)*

Türkiyəyə yönəlmiş casusluq cəhdlərinin qarşısı alınıb

Təhlükəsizlik çətirimizin digər mühüm istiqamətlərindən biri ölkəmizə qarşı həyata keçirilən casusluq cəhdlərinin qarşısının alınmasıdır. Türkiyə kimi güclü və təsirli bir dövlətin casusluq fəaliyyətlərinin hədəfi olması təəccüblü deyil. Casusluq üsullarının sürətlə dəyişməsi və klassik metodlardan kənara çıxılaraq onlayn əməliyyatlar, örtük strukturlar, mütəşəkkil cinayət qruplaşmalarından istifadə, dedektivlərdən faydalanma kimi yeni üsullara əl atılması fonunda, əks-kəşfiyyat sahəsində daim yüksək ayıqlıq və artan potensialla fəaliyyət göstərirk. Nəticə etibarilə, ötən il ərzində ölkəmizə qarşı aparılan fəaliyyətləri və agent şəbəkələrini ifşa edərək casusluq cəhdlərini puça çıxarmışıq. Bu sahədəki işlərimiz güzəştə yol verilmədən və fasiləsiz davam edəcək.

Vətənin müdafiəsini yalnız fiziki sərhədlərlə məhdudlaşdırmayan Milli Kəşfiyyat Təşkilatı texniki kəşfiyyat və kiber təhlükəsizlik sahəsində atılmlar vasitəsilə kiber vətənin qorunmasında əsas rol oynayır, kiber müdafiə arxitekturasını hər gün daha da gücləndirir. Ən son texnoloji yeniliklər yaxından izlənir, Təşkilatımız timsalında ölkəmizin bu sahədəki səriştəsi ən yüksək səviyyəyə qaldırılır. Bu çərçivədə kiber hücumlara, sosial media və maliyyə alətləri vasitəsilə ölkəmizi sabitlikdən çıxarmağa çalışanlara qarşı həyata keçirilən əməliyyatlar bu fəaliyyətlərimizin konkret nəticəsidir.

Yeni sınaqlar və hibrid təhdidlər fonunda Təşkilatımızın və dövlətimizin analiz imkanlarının inkişaf etdirilməsinə töhfə verirk. Böyük verilənlərin təhlili, şərhi və təfbiq oluna bilən informasiyaya çevrilməsi üçün çoxtəbəqəli və fənlərarası metodları tətbiq edirik. Kəşfiyyat təməli möhkəm, sahə məlumatı güclü, analitik bacarığı yüksək olan Təşkilatımızın dövlətimizə və xalqımıza tam şəkildə xidmət göstərməsi üçün bundan sonra da bütün imkanlarımızı səfərbər edəcəyik.

Milli Kəşfiyyat Təşkilatı ölkə daxilində vətəndaşlarımızın təhlükəsizliyi və rifahını ön planda tutan genişmiqyaslı kəşfiyyat fəaliyyəti ilə yanaşı, sərhədlərimizdən kənarda, xüsusilə gərginlik və münaqişə zonalarında tərəflər arasında etibarlı kommunikasiya kanalları yaradaraq, effektiv vasitəçilik təşəbbüsləri ilə müxtəlif münaqişələrin kəskinləşməsinin qarşısını alır və təhdidlərin böhrana çevrilməsini əngəlləyir. Təşkilatımızın həyata keçirdiyi kəşfiyyat diplomatiyası səssiz, dərin və sistemli xarakteri ilə regional və qlobal sülhə mühüm töhfələr verir.

Qəzza atəşkəsindən Rusiya-Ukrayna müharibəsinə, Somalidən Əfqanıstan-Pakistan xəttindəki gərginliyin azaldılmasına qədər müxtəlif coğrafiyalarda mürəkkəb və fərqli dinamikaya malik prosesləri yaxından izləyir, regional sülh və sabitliyə töhfə veririk. Məqsədimiz regional və beynəlxalq müstəvidə qarşılıqlı etimad və hörmətə əsaslanan təhlükəsizlik və sabitlik zolağı formalaşdırmaqdır.



Böhranların və ya böhrana çevrilə biləcək gərginliklərin ilkin mərhələsindən etibarən prosesə qoşulmaq, tərəflərin həssaslıqlarını obyektiv şəkildə anlamaq və həll yolları irəli sürmək yanaşmamızın əsasını dövlətimizin sahib olduğu "qonşuluq hüququna əsaslanan mənəvi dəyərlər" və "təhlükəsizliklə sabitliyin kollektiv xarakter daşıması" anlayışı təşkil edir. Bu çərçivədə kəşfiyyat diplomatiyasında yalnız gücə və əməliyyat dilinə söykənməkdən kənara çıxılaraq, tərəfləri anlamağa, ortaq zəkanı, mədəniyyəti və tarixi, başqa sözlə desək, "sivilizasiya yaddaşını" xatırlatmağa da diqqət yetirilir.

Suriya

Yaxın Şərqin strateji balansı baxımından kritik əhəmiyyət daşıyan Suriya məsələsində vətəndaş müharibəsinin başlanmasından başa çatmasına qədər bölgədəki proseslər yalnız humanitar, siyasi və təhlükəsizlik aspektləri ilə deyil, bütöv yanaşma ilə qiymətləndirilib. 2024-cü il dekabrın 8-də açılan tarixi imkan pəncərəsi Suriyanın yalnız suriyalılar tərəfindən idarə olunan sabit gələcəyi üçün geri dönüşü olmayan mərhələnin və ümidverici trafsformasiya prosesinin başlanğıcı olub.

Azad, suveren, vahid, təhlükəsiz, demokratik və firavan Suriya həm ölkə daxilində sabitliyi təmin edəcək, həm də regionda sülh və sabitliyə töhfə verəcək. Suriyanı bölməyə, siyasi birliyini zəiflətməyə və suveren hüquqlarını pozmağa yönəlmiş bütün daxili və xarici cəhdlər iflasa məhkumdur.

Beynəlxalq ictimaiyyətin Suriyanı əsas aktor kimi beynəlxalq sistemə inteqrasiya etmək istiqamətindəki səylərinə mühüm töhfələr verən ölkəmiz və Təşkilatımız strateji səbir və müdrikliklə regional sülh naminə Suriyada sabitliyin təmin olunmasına və qorunmasına dəstəyini davam etdirəcək.

Afrika

Strateji rəqabətin sürətləndiyi digər bir sahə olan Afrika qitəsi də ölkəmizin prioritet bölgələri sırasındadır. Qitəyə yanaşmamız "Afrikanın problemlərinə afrikalı həllər" vizyonu əsasında formalaşır. Milli Kəşfiyyat Təşkilatı olaraq Liviyada sabitləşdirici mövqeyimizdən, Somalidə terrorla mübarizəyə verdiyimiz töhfələrə və Sudana qədər qitə üzrə fəaliyyətlərimiz bir çox ölkənin diqqətini cəlb edir. Çaddan Nigerə, Toqodan Burkina-Fasoya, Tanzaniyadan Keniyaya qədər Afrikanın hər yerində kəşfiyyat diplomatiyasının müsbət nəticələri əldə olunur.

Dərin tarixi və mədəni bağlara malik olduğumuz qardaş türk dövlətləri ilə əməkdaşlığın inkişaf etdirilməsi ilə yanaşı, Balkanlarda da sabitliyin təmin olunmasında mühüm rol oynanır, bu ölkələrlə kəşfiyyat sahəsində koordinasiya işləri sürətləndirilir. Proaktiv diplomatiya yanaşması və strateji kəşfiyyat imkanları ilə bu coğrafiyalarda sülh və sabitliyin bərqərar olunması istiqamətində səylər bundan sonra da davam edəcək.

Təşkilatımız prezident cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında dövlət ağlını əsas tutaraq bütün aidiyyəti qurumlarla tam uyğunluq və koordinasiya şəraitində ölkəmizə və xalqımıza xidmət etməyin qürurunu yaşayır.

Ölkəmizdə, bölgəmizdə və dünyada daha təhlükəsiz, daha işıqlı və daha firavan gələcəyə nail olmaq məqsədilə Milli Kəşfiyyat Təşkilatı, bir əsrə yaxın institusional kimliyi, yüzillik dövlət ənənəsi və zəngin sivilizasiya yaddaşı ilə dövlətimizin mövcudluğu və xalqımızın sülhü və rifahı naminə fəaliyyətini dəqiqlik, fədakarlıq və qətiyyətlə davam etdirəcək.

Bu münasibətlə Təşkilatımızın yüksək mənəvi dəyərlərə sahib, vətən uğrunda canını fəda etməkdən çəkinməyən, fədakar və sədaqətli adsız qəhrəmanlarını salamlayır, şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Milli Kəşfiyyat Təşkilatı olaraq Türkiyə Respublikasına və əziz xalqımıza xidmət etməyin şüuru və şərəfi ilə hər cür çətinliyin öhdəsindən gələcəyimizə inamımız tamdır.




*ordu.az*